# Qax: Gənclərin fəallığı inkişafda böyük rol oynayır

Burada gənclərin ictimai, iqtisadi fəallığının artırılmasına xüsusi diqqət və qayğı var. Rayon gənclər və idman idarəsinin rəisi Əlövsət Bayramov bizimlə söhbətində yuxarıdakı fikirləri əyani təsdiq edən bir sıra konkret faktlara istinad edərək Qax gəncliyinin bugünkü fəallığından ətraflı söhbət açdı:

- Rayon gənclər və idman idarəsi 2016-cı ilin ötən dövrü ərzində iş planına uyğun məqsədyönlü iş aparmışdır. Nəzərdə tutulmuş bütün tədbirlər rayon gənclərinin fəallığı ilə həyata keçirilmişdir. “Yaradıcı gənclər”, C.Rəhimov adına “Hərbi vətənpərvərlik tərbiyəsi”, “Xəmsə” intellektual, “Fəal oxucular” klubları tədbirlərin təşkilində fəallıq göstərirlər. İnzibati ərazi üzrə nümayəndəliklər, bələdiyyələr, təhsil müəssisələri, idman təşkilatları və digər əlaqədar qurumlarla əlaqələri daha da genişləndirərək rayonda bədən tərbiyəsi və idmanın kütləviliyinin və idman ustalığının artırılmasına nail olunmuşdur.

“Narkotik vasitələrin, psixotrop maddələrin və onun prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar “Narkomaniya və QİÇS-dən özümüzü qoruyaq” adı altında keçirildiyi “dəyirmi masa”nın əsas məqsədi ölkəmizdə cavanlaşmaqda olan narkomaniyanın Qax yeniyetmə və gənclərinə təsirinin qarşısını almaq və maarifləndirmək olub.

20 Yanvar Gününə həsr olunmuş rəsm müsabiqəsi də maraqlı olmuşdur. Müsabiqədə 30-a yaxın gənc rəssam iştirak etmişdir. Gənclər və idman idarəsi və rayon təhsil şöbəsinin təşkilatçılığı ilə şəhər 4 saylı tam orta məktəbdə 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş “Azadlığa gedən yol” mövzusunda “dəyirmi masa”larda gənclər böyük fəallıq göstərmişlər.

“2 Fevral - Gənclər Günü”nə həsr olunmuş 17 yaşlı gənclər arasında “Xəmsə” milli intellektual oyunu üzrə rayon birinciliyində 16 komanda iştirak etmiş, şəhər 4 saylı tam orta məktəbin komandası birinci, Qum kənd tam orta məktəbin komandası ikinci, şəhər 5 saylı tam orta məktəbin komandası üçüncü yeri qazanmışdır. “2 Fevral - Gənclər Günü” münasibəti ilə keçirilən rayon toplantısında 10 gənc fəxri-fərman və qiymətli hədiyyələrlə mükafatlandırılmış, valideynlərin hazırladığı əl işlərindən ibarət sərgi nümayiş olunmuş, daha sonra onların “dəyirmi masa”larda iştirakı təmin edilmişdir. Artıq ənənə halını almış Qax şəhər 2 saylı məktəb-liseyində keçirilən 11 “dəyirmi masa”da 275 nəfər yeniyetmə və gənc iştirak etmişdir.

Folklorumuzun təbliği və istedadlı gənclərimizin aşkar edilməsi məqsədilə keçən müsabiqənin yekununda Qaşqaçay mədəniyyət evinin kollektivi I, şəhər 2 saylı məktəb II, Almalı kənd mədəniyyət evinin kollektivi III yeri, İlisu kənd mədəniyyət evinin kollektivi isə fərqləndirici yerə layiq görülmüşlər.

Azərbaycan Respublikasının Prezidenti yanında gənclərə maliyyə dəstəyi ilə Qax rayonunda “İntellekt” adlı layihəyə start verilmişdir. 1 dekabr 2015-ci il tarixdən 29 fevral 2016-cı ilədək olan müddətdə fəaliyyət göstərən “İntellekt” klubunun yaradılmasında məqsəd “Azərbaycan Gəncliyi 2011-2015-ci illər”də Dövlət Proqramının icrası, yeniyetmələrin intellektual səviyyəsini, dünya görüşünü, zehni inkişafını stimullaşdırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən və pis vərdişlərdən uzaqlaşdırmaqdan ibarət olmuşdur. Layihə çərçivəsində rayonumuzda da “İntellekt” intellektual klubu yaradılmışdır. Hazırda klubun 200-ə yaxın üzvü var. Klubun fəaliyyət dövrü ərzində yeniyetmələr və gənclər arasında 2 rayon birinciliyi keçirilməsi planlaşdırılıb. Birinci yarışda 8 komandadan ibarət 40 nəfər iştirak etmişdir. Yarışın nəticələrinə görə, I yeri 4 saylı tam orta məktəbin, II yeri 5 saylı tam orta məktəbin, III yeri Almalı kənd orta məktəbinin komandası qazanmışdır. İkinci yarışda isə şəhər 4 saylı tam orta məktəbin, Qum kənd tam məktəbinin, Çalayer kənd orta məktəbinin komandaları müvafiq olaraq I, II, III yerləri tutmuşlar. Rayonun ən güclü komandası adı uğrunda keçirilən yarışda isə birinci yeri şəhər 4 saylı tam orta məktəbin, ikinci yeri isə Qum kənd orta məktəbin komandaları tutmuşlar. Ümumiyyətlə, layihədə 200-ə yaxın gənc iştirak etmişdir.

Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Gənclər və idman idarəsi, rayon təhsil şöbəsi və rayon hərbi komissarlığının birgə təşkilatçılığı ilə “Şahin” Hərbi İdman oyunun I mərhələsi olan məktəbdaxili seçmə yarışları keçirilmişdir. Yarışlarda 35 komandada 490 nəfər iştirak etmişdir. Seçmə yarışların qalibi olmuş 16 komanda “Şahin” hərbi idman oyunun II mərhələsi olan rayon birinciliyində iştirak edəcək.



Gənclər və idman idarəsinin işçiləri, Qax rayon mərkəzi poçt şöbəsinin əməkdaşları, əhalinin sosial müdafiəsi mərkəzinin kollektivi, İlisu kənd icra nümayəndəliyi və kənd bələdiyyəsinin işçiləri, C.Rəhimov adına “Vətənpərvərlik klubu”nun üzvləri ilə birgə Qax rayonunda yerləşən Sərhəd Qoşunları Dövlət Sərhəd Xidmətinin N saylı sərhəd zastavasında əsgərlərlə görüş keçirilmişdir. Bayram münasibəti ilə ordu sıralarında xidmət edən gənclərin asudə vaxtının səmərəli təşkili və klubun üzvlərinin əsgər həyatının yaxından tanışlığı məqsədi ilə keçirilən görüşdən həm klub üzvləri, həm də əsgərlər çox razı qalıblar. 31 mart Azərbaycanlıların soyqırımına həsr olunmuş gənclər arasında təşkil olunmuş “dəyirmi masa”larda xalqımızın başına gətirilən vəhşilikləri xatırlanmış, düşmənə nifrət hisslərinin sonrakı nəsillərə ötürülməsini təmin etməkdən geniş söhbətlər aparılmışdır. Gənc nəsli Vətənə, onun sərhədlərinə hörmət ruhunda tərbiyə etmək, yaradıcı, düşünən, sağlam gənclər yetişdirmək və onlarda sərhədçi peşəsinə marağı artırmaq məqsədilə sərhədyanı orta məktəbin 10-cu sinif şagirdləri arasında “Sərhəd” hərbi idman oyunları keçirilmişdir.

Rayonumuzda 116 ilk bədən tərbiyəsi kollektivində 15 idman növü inkişaf etdirilir. Həmin idman növləri üzrə müntəzəm olaraq 4006 nəfər idmançı məşğul olur. Onların 1079 nəfəri qızlardır. Bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsində 187 nəfər idman mütəxəssisi məşğul olur, bilik və bacarığını əsirgəmir. Onların 42 nəfərini qadınlar təşkil edir, 118 nəfərinin ali, 62 nəfərinin orta ixtisas təhsili var. Bədən tərbiyəsi və idmanla məşğul olanların ixtiyarında 212 idman qurğusu var. Olimpiya idman kompleksini, 1500 nəfər tamaşaçı tutan stadionu, kompleks idman qurğusunu, 34 idman zalını, 4 atıcılıq tirini, 4 üzgüçülük hovuzunu, 165 sadə idman qurğusunu, 1 bədən tərbiyəsi sağlamlıq mərkəzini misal göstərmək olar. 2016-cı ilin ötən dövrü ərzində 41 idman yarışları keçirilmişdir. Görülən işlərin nəticəsidir ki, rayonumuzun idmançıları 2016-cı ilin ötən dövrü ərzində respublika yarışlarında uğurla çıxış etmişlər. 17-18 fevral 2016-cı il tarixdə Bakı şəhərində keçirilən sərbəst güləş üzrə Azərbaycan birinciliyində Məhəmməd Abdullayev I yeri tutmuşdur. 25-30 mart 2016-cı il tarixdən Oğuz şəhərində keçirilən Yeniyetmələrin X Respublika oyunlarına proqramına daxil olan qızların voleybol üzrə respublika birinciliyinin zona yarışlarında komandamız I yeri tutaraq finala vəsiqə qazanmışdır. Komanda finala hazırlaşır. Mingəçevir şəhərində keçirilən 10-11 yaşlı futbolçular arasında “Sabahın ulduzları” kuboku uğrunda futbol üzrə ölkə birinciliyinin zona yarışında komandamız I yeri tutaraq finala vəsiqə qazanmışdır. Biləsuvar şəhərində keçirilən final yarışlarında futbolçularımız bütün rəqiblərinə qalib gələrək Azərbaycan çempionu olmuşlar. Bakı şəhərində 2000-2001-ci il təvəllüdlü qızların voleybol üzrə Azərbaycan çempionatının finalında rayonumuzun voleybolçuları III yeri tutmuşlar. Rayonumuzda keçirilən kross üzrə Azərbaycan çempionatının final mərhələsində rayonumuzun atletləri uğurla çıxış edərək komanda hesabında Bakı komandasından sonra II yerə çıxmışlar. AFFA tərəfindən keçirilən 16 yaşlı qızlar arasında futbol üzrə region birinciliyində rayonumuzun qız komandası II yerə müvəffəq olmuşdur. “Coca-Cola” məktəbinin kuboku uğrunda mini-futbol üzrə region birinciliyində 4 komanda arasında rayonumuz I yeri tutmuşdur. Vətənin müdafiəsinə hazıram poliation çoxnövlüyü üzrə respublika birinciliyin finalı rayonumuzda keçirilmiş və komandamız rayonlar qrupunda I yeri tutaraq respublika çempionu olmuşlar.

9-13 iyun 2016-cı il tarixdə Macarıstanın Budapeşt şəhərində keçiriləcək Pankration idman növü üzrə Avropa çempionatında iştirak etmək üçün rayonumuzun yetirmələri Etiram və Coşqun Dərişov qardaşları Macarıstana getmişlər.

Uğurlarımız nə qədər çox olsa da, bir daha uca zirvələrə getməyi qarşımıza məqsəd qoymuşuq.

**Söhbəti qələmə aldı:**
**Rasim AMANOV,**
**“Respublika”.**